BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2007*

## QANUNVERİCİLİK TEXNİKASININ MAHİYYƏTİ MƏSƏLƏSİNƏ DAİR

**F.Ə.SEYİDOV**
*Bakı Dövlət Universiteti*

Müasir cəmiyyətdə iqtisadi, siyasi və sosial-mədəni münasibətlərin inkişafı onların hüquqi cəhətdən ifadə olunması istiqamətində yeni vəzifələr irəli sürür. Bu vəzifələrin çoxşaxəliliyi və dərin sosial şərtiliyi qanun yaradıcılığı təcrübəsində, yəni qanunvericilik texnikasının tətbiqi sahəsində qarşıya çıxan bir sıra problemlərin təhlili zamanı özünü əyani surətdə büruzə verir.

Tarixən qanunvericilik texnikası məsələlərinə elmin marağı qanunvericilik köklü şəkildə yeniləndikdə yaranır, lakin, təəccüblü olsa da, o, özünün ən yüksək səviyyəsinə hüquqyaradıcılığı işləri başa çatdıqdan sonra ucalır. Bununla belə, hüquq ədəbiyyatının təhlilinin göstərdiyi kimi, təəssüf ki, hazırda alimlər qanunvericilik texnikasına baxışlarda yekdilliyə nail olmamışlar, buna hüquqşünasların əvvəlki nəsilləri də müvəffəq ola bilməmişlər. Müvafiq texnikanın anlayışı, onun komponentləri, oxşar kateqoriyalarla nisbəti və s. kimi prinsipial məsələlərin əksəriyyətində razılıq əldə edilməmişdir. Aydındır ki, belə vəziyyət nəzərdən keçirilən istiqamətdə elmi axtarışın səmərəliliyini xeyli dərəcədə azaldır ki, bu da, nəticə etibarilə, qəbul edilən qanunların keyfiyyətinə mənfi təsir göstərir.

Bununla əlaqədar qanunvericilik texnikası mənşəyinin öyrənilməsi, onun anlayışının, vasitə və qaydalarının işlənib hazırlanması, qanunvericilik üsullarının təbiəti barədə əlavə biliklər almağa, hüquqi konsepsiyaları müəyyənləşdirməyə, hüquqi ideyaların müəyyən formalarını səmərəli şəkildə yenidən qurmağa imkan verir.

Əgər qanunvericilik texnikasının təşəkkülünə müraciət etsək, habelə bu texnikanın yerinə yetirdiyi funksiyaları nəzərdən keçirsək, görərik ki, o, öz real ifadələrində və proseslərində nəinki hüquqi fəaliyyətin elementi kimi mövcuddur, həm də sosial dinamikanın daha geniş prosesinə daxildir.

Qanunvericilik texnikası anlayışını müəyyən etmək üçün onun bir sıra ən fundamental xarakteristikalarını araşdırmaq lazımdır. Bu, ilk növbədə, onun mahiyyəti məsələsinə aiddir.

Fəlsəfi ədəbiyyatda mahiyyət kateqoriyası «predmetin hüqiqi məzmunu onun mövcudluğunun bütün müxtəlif və ziddiyyətli formalarının vəhdətində ifadəsini tapan mahiyyət» kimi müəyyən edilmişdir (1).

Hüquq ədəbiyyatında qanunvericilik texnikasının mahiyyəti ilə müqayisədə onun vəzifələrindən, metodlarından, üsullarından daha tez-

tez danışılır. Halbuki, hamılıqla qəbul edildiyi kimi, obyektə lazımi tərifi onun mahiyyəti barədə məsələni ancaq düzgün qoymaqla və həll etməklə vermək olar. Zənnimizcə, qanunvericilik texnikasının mahiyyətini aydınlaşdırmaq üçün tədqiq olunan problemin hüquqi bilik sistemində yeri ilə, başqa sözlə, onun praktik, yaxud nəzəri sahəyə aidiyyatı ilə bağlı problem, ilk növbədə, həll edilməlidir. Bu, bir də ona görə vacibdir ki, tədqiqatçılar arasında bu problemə vahid yanaşma mövcud deyildir. Həmin məsələ barədə tədqiqatçılar arasında fikir ayrılığı olduqca genişdir. Buna baxmayaraq, şərti olaraq bütün mövcud yanaşmaları üç böyük qrupda birləşdirmək olar: 1) müstəsna praktiki, 2) müstəsna elmi, 3) elmi-praktiki (metodoloji).

Müstəsna praktiki yanaşma qanunvericilik texnikasına qanunun mətninin hazırlanmasına yönəldilmiş ancaq praktiki fəaliyyət kimi baxılmasını nəzərdə tutur. Məsələn, L.M.Boyko yazır: «Bizə elə gəlir ki, qanunvericilik texnikası dedikdə, normativ aktlar layihələrinin hazırlanmasının sırf texniki məqamlarını, yəni, hüquqi aktları tərtib etməyin, onları rəsmiləşdirməyin metodikası ilə bağlı nə varsa, hamısını başa düşmək lazımdır» (2). X.E.Baxçisaraytsev də oxşar mövqe tutur. O, qanunvericilik texnikasını yalnız aktın mətninin tərtib edilməsinin qaydası və qəbulu kimi müəyyənləşdirir (3).

Müstəsna elmi yanaşmanın (bu yanaşmaya görə, qanunvericilik texnikası ancaq və ancaq elmdir) əsas müddəaları özlərinin təkmil formasında vaxtilə L.Uspenskinin monoqrafiyasında şərh olunmuşdu. O, güman edirdi ki, qanunvericilik texnikası hüququn ümumi nəzəriyyəsinin predmetini özündə tamamilə canlandırır (4).

Hər halda, xüsusi xassəli hüquqi təzahür olaraq, qanunvericilik texnikasını, zənnimizcə, nə hüquqi aktlar layihələrinin rəsmiləşdirilməsi üzrə müstəsna praktiki fəaliyyətə, nə də sırf nəzəri sahəyə tamamilə aid etmək olar. Özlüyündə qanunvericilik texnikası hər iki elementin vəhdətidir. Təsadüfi deyil ki, yuxarıda şərh olunan iki yanaşmanın sintezi mövqeyi üstünlük təşkil edir. Məsələn, A.A.Uşakovun fikrincə, qanunvericilik texnikasına, bir tərəfdən, qanunvericiliyin optimallaşdırılması üzrə praktik fəaliyyət kimi, digər tərəfdən isə, belə fəaliyyəti öyrənən elmi fənn kimi baxmaq lazımdır (5). A.A.Uşakov başqa bir əsərində iddia edir ki, «daha məhdud mənada, qanunvericilik texnikasının vəzifəsinə hüquqi ideyanın konkret maddi hüququ məkanda təcəssüm olması qaydalarının, üsullarının *öyrənilməsi* (fərqləndirmə mənimdir - F.S.) daxildir» (6).

Müəllif İ.L.Braudenin belə bir mülahizəsinə tam şərikdir ki, «qanunvericilik texnikası ilə elm arasında kəskin sərhəd yoxdur və ola da bilməz. Qanunvericilik texnikası hüquq elminə əsaslanır və hüquq elmi qanunvericilik texnikasına ondan ayrılmaz elementlə daxil olur» (7).

Qanunvericilik texnikasının mahiyyəti probleminə dair təsvir edilən yanaşma metodoloji yanaşma kimi müəyyən oluna biləcək yanaşmaya daha yaxındır. Bizim də şərik çıxdığımız bu yanaşmanın mahiyyəti ondadır ki, xüsusi xassəli hüquqi təzahür kimi qanunvericilik texnikasını nə hüquqi akt layihələrinin rəsmiləşdirilməsi üzrə müstəsna hüquqi fəaliyyətə, nə də sırf nəzəri məsələyə aid etmək olar. Başqa sözlə, o, özlüyündə hər iki elementin vəhdətidir, yəni elmi və praktiki elementlərin vəhdətidir.

Beləliklə, özlüyündə qanunvericilik texnikası hüquqi biliyin elmi-

texniki sahəsidir. Bu deyilənlər təsdiq etməyə imkan verir ki, qanunvericilik texnikasında təkcə tətbiqi deyil, idraki əhəmiyyət də mövcuddur. Qanunvericilik texnikasının mahiyyəti və rolu ilə bağlı metodoloji problemlərin həll edilməmiş qalması çox qəribə və hətta təhlükəli vəziyyətə – bu mühüm hüquqi fenomenin unudulmasına gətirib çıxara bilər. Məsələn, dövlət və hüquq nəzəriyyəsinə dair bəzi ən yeni tədris ədəbiyyatında qanunvericilik texnikası, ümumiyyətlə, göstərilmir.

Bu baxımdan «qanunvericilik texnikası» anlayışının geniş tətbiqi, habelə onun dərindən tədqiqi nəinki hüquqa uyğundur, həm də elmi və praktiki cəhətdən məqsədəuyğundur.

Müxtəlif tarixi dövrlərdə hüquq ədəbiyyatında qanunvericilik texnikası haqqında məsələ, bir çox tədqiqatçıların rəylərində cüzi fərqlərə baxmayaraq, prinsipcə, birmənalı şəkildə həll edilmişdir. Fikrimizcə, qanunvericilik texnikası probleminə dair baxışların müxtəlifliyinə rəğmən, şərti olaraq iki yanaşmanın mövcudluğunu qeyd etmək olar:

1) qanunvericilik texnikasının hüquqi fəaliyyətin birdən artıq aspektini əks etdirən «geniş» yanaşma;

2) qanunvericilik texnikasının hüququn yalnız bir sahəsində - qanunvericilik sahəsində olduğunu elan edən «məhdud» yanaşma.

Geniş yanaşmada qanunvericilik texnikası həm qərarların mahiyyətcə işlənilməsini, həm də, adətən, texniki xarakterli qərarlar adlandırılan qərarların işlənilməsini əhatə edir. Başqa sözlə, özlüyündə, o, həm hüquq normalarının öz mahiyyəti, məzmunu baxımından hazırlanması əməliyyatını, həm də elə əməliyyatları əhatə edir ki, onların köməyilə mahiyyət üzrə qərarlar öz spesifik ifadə formasını kəsb edir.

Geniş yanaşma tərəfdarları normativ göstərişlərin yaradılması üzrə texniki əməliyyatlarla yanaşı, digər qanunyaratma komponentlərini, çox vaxt da, qanunhazırlama fəaliyyətinin təşkilati-prosedur qaydalarını da qanunvericilik texnikası ilə əhatə etməyə çalışırlar. Məsələn, bir sıra müəlliflər qeyd edirlər ki, qanunvericilik texnikası qaydaları, həmçinin, «qanunhazırlama fəaliyyətinin təşkili məsələlərini: qanun layihələrinin hazırlanmasını və redaktə olunmasını, onların əlaqədar idarələrlə razılaşdırılmasını, lazımi vizaların və rəylərin alınmasını, layihələrin əvvəlcədən müzakirəsini, o cümlədən də ümumxalq referendumu keçirilməsini də tənzimləyir» (8). Onlar bu halda qanunvericilik texnikasının məzmununa əsas hüquqyaratma prosedurunu (qanunvericilik təşəbbüsünü, layihələrin irəli sürülməsi və müzakirəsi qaydasını və s.) təsbit edən normaları, qanunların çap olunması qaydaları və qəbulunu, aktların bir dildən digərinə tərcüməsinin təşkilati-metodiki qaydalarını da daxil edirlər. Qanunvericilik texnikasının çərçivələri, normativ aktlarda onların qəbulu tarixi və yerinin göstərilməsi, habelə vəzifəli şəxsin imzası olması barədə tələbləri bu texnikanın məzmununa aid etmək yolu ilə də genişləndirir.

Qanun layihələrinin hazırlanması işinin lazımınca təşkili, onların qəbul edilməsi və imzalanması proseduru qanunyaratmada, şübhəsiz, mühüm rol oynayır, amma normativ göstərişlərin hazırlanmasına bilavasitə aidiyyəti yoxdur. Prosedur-təşkilat qaydaları, əslində, ancaq texniki məsələləri – normativ aktların üslubunun, dilinin, məntiq və strukturunun müəyyən edilməsi zamanı qarşıya çıxan spesifik sosial əlaqələri tənzimləyir. L.L.Kruqlikov düzgün qeyd edir ki, belə geniş şərh təqdirində qanunvericilik texnikası «hüququyaratma, normayaratma

anlayışı ilə, hüquqi aktların hazırlanması, müzakirəsi, qəbulu və dərc olunması anlayışı ilə birləşir...» (9). Y.V.İlyuk hətta güman edir ki, sözün geniş mənasında nəzərdən keçirilən qanunvericilik texnikası hüquqyaratma nəzəriyyəsi ilə tamamilə eynidir (10). Eynilikdən danışmaq çətin ki, mümkündür (çünki hüquqyaratma nəzəriyyəsi prosedur məsələlərilə və texniki məsələlərlə tükənmir), lakin, əslində, bütün hüquqyaratma komponentlərinin məzmununa həmin texnikanın geniş yanaşmaya xas daxilolma tendensiyası düzgün göstərilmişdir.

Qanunvericilik texnikasına bu cür baxışın nöqsanlı olduğunu onun tərəfdarları da dərk edirlər. Məsələn, Y.A.Tixomirov etiraf edir ki, o və texnikanın geniş səpkidə anlaşılmasının digər tərəfdarları «bu texnikanı qanunvericilik prosesinə yaxınlaşdırırlar» (11). Göstərilən «yaxınlaşma» öz təcəssümünü bunda tapır ki, Y.A.Tixomirovun redaktəsilə 2000-ci ildə nəşr edilmiş qanunvericilik texnikası haqqında kollektiv əsərdə qanunyaratma nəzəriyyəsinin payına qətiyyən heç nə qoymur (bu əsərdə təkcə təşkilat-prosedur məsələləri deyil, həm də qanunyaratmanın mahiyyət aspektləri – obyektiv qanunauyğunluqların dərk edilməsi və s. təhlil olunmuşdur). Lakin, alimin daha sonra izah etdiyi kimi, «müəlliflər belə «genişləndirilmiş dolğunluğu» əsaslı sayırlar, çünki bu, qanunların hazırlanmasının məzmun və formal hüquqi vasitələri arasında daha ciddi əlaqə olmasına kömək edir» (12).

Demək lazımdır ki, heç kim qanunyaratmanın idraki, məzmunlu, formal və təşkilat-prosedur elementlərini də inkar etmir. Üstəlik, onları «vəhdət»lə birləşmə adlandırmağa hər cür əsas var. Bununla yanaşı, bu komponentlərin sıx qarşılıqlı əlaqəsi onların öz müstəqilliyini itirməsinə gətirib çıxarmır. Buna görə də hüquq elminin məhz vəzifəsi hüquq təzahürünü kompleks şəkildə öyrənərkən onun tərkib hissələrini fərqləndirməkdən və onları ayrıca təhlil etməkdən ibarətdir.

Tədqiqatçılar qanunvericilik texnikasının geniş şərhini əsas tutaraq, güman edirlər ki, qanunvericilik texnikası normativ hüquq aktlarının hazırlanması, formalaşdırılması və dərc edilməsi qaydaları və üsullarının məcmusudur. Qanunvericilik texnikası, həmçinin, normativ aktların hazırlanması, rəsmiləşdirilməsi və sistemləşdirilməsi qaydaları, vasitələri, üsulları məcmu kimi hüquq mənbələri və hüquqyaratma kontekstində şərh olunur. Bununla da normativ sənədin hazırlanan mətni qanunvericinin böyük intellektual səylərinin nəticəsi kimi çıxış edir.

Başqa sözlə, qanunvericilik texnikası normativ sərəncamların formalarının onların məzmununa tam və dəqiq uyğunluğunu, normativ materialın müyəssərliyini, sadəliyini və araşdırıla bilinməsini, tənzimlənən məsələlərin hərtərəfli əhatə olunmasını təmin edən normativ aktların formaca və strukturca daha təkmil layihələrinin hazırlanması qaydaları və üsulları sistemi kimi xarakterizə edilir.

Nəzərdən keçirilmiş və digər elmi qiymətlərin qanunvericilik texnikası termininin anlamında birləşdirilməsi belə nəticə çıxarmağa imkan verir ki, o, qanunun həyatının bütün mərhələlərində «iştirak edir»: əvvəla, qanun layihəsinin ilkin variantının işlənib hazırlanması, qanunun formalaşdırılması və qəbulu prosesində qanunvericilik texnikasından mütləq istifadə olunur; ikincisi, zahirən qərəzsiz görünsə də, ondan bu və ya digər sosial mənafelər nəzərə alınmaqla, davranışın məqsədyönlü surətdə tənzimlənməsi üçün istifadə edilə bilər; üçüncüsü, o, hüququn müxtəlif sahələrində hüquqi-texniki üsulların spesifikasını

nəzərə almağa кöməк edir.

Beləliкlə, qanunvericiliк texniкasının inкişaf istiqamətlərinin elmi tədqiqi sahə üzrə tənzimləmənin obyeкtlərini və metodlarını müəyyənləşdirməyə imкan verir, normayaratmada təşəккül tapmış ənənəvi üsullar isə hüquq təsisatları və normalarının müfəssəl struкtur elementlərini hərtərəfli öyrənməyə кömək edir.

Qanunvericiliк texniкasının məhdud şəкildə anlaşılmasına gəldiкdə, onu normaların sırf texniкi quruculuğu mərhələsi ilə, ona xas texniкi vasitələr və üsullarla bağlayırlar, çünкi, əкs halda, başa düşməк mümкün olmazdı кi, qanunvericinin hüquqyaratma amillərinin dərк edilməsi və qiymətləndirilməsi əsasında formalaşdırdığı davranış qaydalarının кöməyilə spesifiк üsullar öz spesifiк ifadəsini və spesifiк funкsional qabiliyyətini hansı yolla tapır.

Laкin «həmin anlayışın məhdud şərhinin tərəfdarları arasında da yeкdilliк ancaq bunun etiraf edilməsində müşahidə olunur кi, bu anlayış ümumiləşdirilmişdir və onun məzmununa daxil edilmiş elementlər barəsində belə şey yoxdur: onun vasitə və üsullarının məcmusundan (кompleкs şəкildə olmasından); qayda və üsullardan; vasitələrdən, qayda və üsullardan; prinsiplərdən, vasitə və qaydalardan; vasitə və əməLiyyatlardan və sairədən danışırlar» (13).

N.A.Vlasenкo, C.A.Kərimov, A.S.Piqolкin, A.F.Çerdantsev və digər tədqiqatçılar bəzi modifiкasiyalar və nüanslarla qanunvericiliк texniкası deyildiкdə, bir qayda olaraq, hüquq aкtlarının hazırlanması və şərhinin müvafiq vasitələrinin, üsullarının, metod və qaydalarının məcmusu (sistemi) кimi başa düşürlər. Məhdud yanaşmada qanunvericiliк texniкasını normativ aкtların təкmilliyini təmin etməк məqsədilə onların hazırlanması prosesində istifadə edilən vasitələrin, üsulların, metodların, əməliyyatların və bu кimi кomponentlərin məcmusu кimi nəzərdə tuturlar. Bu yanaşmanın tərəfdarları qanunvericiliк texniкasını hüquq normalarının dil tərtibi məsələləri və normativ aкtların struкturlaşdırılması ilə eyniləşdirirlər.

Bəzi alimlər qanunvericiliк texniкasını hüququn zahiri tərtibi çərçivələrilə məhdudlaşdırmır və buraya hüquq struкturunun hazırlanması məsələlərini də əlavə edirlər. Bu mövqe düzgün sayılır, laкin, o, zənnimizcə, inкişaf etdirilməlidir.

Qanunvericiliк texniкasının məhdud mənada anlaşılması tərəfdarlarının mövqeyinə görə, o, hüququn məzmununa aid deyildir, yəni, məzmun-hüquq aspeкtinin istisna edilməsi qanunvericiliк texniкasını müəyyənləşdirməyə yanaşmada başlıca amildir. Bizə bu mövqe o mənada doğru görünür кi, qanunvericiliк texniкası hüquq normasının mahiyyətinin hazırlanmasında iştiraк etmir. Hüququn məzmununa gəldiкdə isə, fiкrimizcə, qanunvericiliк texniкasının ona birbaşa aidiyyəti var.

S.S.Aleкseyev qanunvericiliк texniкasını hüquq (normativ) aкtlarının təкmilliyini təmin etməк üçün onların hazırlanması və sistemləşdirilməsi zamanı qəbul olunmuş üsullara müvafiq surətdə istifadə edilən vasitə və üsulların cəmi кimi müəyyənləşdirərəк, bu anlayışı hüquq materialının müəyyən şəкildə təşкili ilə və onun zahiri şərhilə, ilк növbədə, hüquq struкturunun ifadəsi ilə bağlayır.

O, qeyd edir кi, «öz məzmunu etibarilə qanunvericiliк texniкası iкi elementdən əmələ gəlir: 1) texniкi vasitələrdən; 2) texniкi üsullardan» (14).

V.N.Kartaşov, öz növbəsində, hesab edir ki, qanunvericilik fəaliyyətinin müvafiq vasitələrini, üsul və metodlarını, yəni, qanunvericilik taktikasının elementlərini qanunvericilik texnikası çərçivəsində nəzərdən keçirmək məqsədəuyğun deyildir (15).

N.S.Aleksandrovun fikrincə, «qanunvericilik texnikası hüquq norması mətninin mənasını izah etmək məqsədilə hüquq dilinin vasitələrindən istifadə olunmasından ibarətdir» (16). İndiki halda qanunvericilik texnikasının bu cür tərifi ilə razılaşmaq çətindir, çünki onu bir neçə sadə üsul, vasitə, prosedurla, o cümlədən də dilin linqvistik üsulları ilə məhdudlaşdırmaq olmaz.

A.Naşits geniş mənanı (qanunyaratma elmi, qanunvericilik siyasəti və qanunvericilik texnikası) və məhdud mənanı (hüquq normaları quruluşunun texniki vasitə və üsulları) əsas tutaraq, qanunvericilik texnikasını hissələrə bölür. Onun fikrincə, qanunvericilik texnikası hüquq normalarının məzmununa müvafiq forma verən metod və üsullar kompleksidir (17).

Bununla yanaşı, A.Naşits və digər əksər müəlliflər qanunvericilik aktların sistemləşdirmə üsul və vasitələrinin qanunvericilik texnikası tərəfindən əhatə olunmasını inkar edirlər.

Beləliklə, hüquq ədəbiyyatının təhlili göstərir ki, ənənəvi olaraq, qanunvericilik texnikası qanunyaratmanın elementi kimi qanunyaratma kontekstində nəzərdən keçirilir. Hüquqşünas alimlərin bəziləri qanunvericilik texnikasını formaca və strukturca daha təkmil olan və normativ göstərişlərin formalarının onların məzmununa tam və dəqiq uyğunluğunu, normativ materialın müyəssərliyini, sadəliyini və araşdırıla bilinməsini, tənzimlənilən məsələlərin hərtərəfli əhatə olunmasını təmin edən normativ akt layihələrinin hazırlanması qaydaları və üsullarının sistemi kimi şərh edirlər (18). Digər alimlər isə, bir qayda olaraq, qanunvericilik texnikasını normativ aktların hüquq mənbələri və hüquqyaratma kontekstində hazırlanmasının, formalaşdırılması və sistemləşdirilməsinin vasitə və üsullarının məcmusu kimi izah edirlər.

Qanunvericilik texnikasının obyekti normativ sənədin mətnidir ki, bunun üçün qanunverici intellektual səylər göstərir. Bəzən hüquqi göstərişlərin məzmununun şərhi vasitələri, hüquqi normaların və ya müddəaların formalaşdırma üsulları, hüquqi aktların qurulma vasitələri və üsulları fərqlənir. Ümumiyyətlə isə, qanunvericilik texnikası qanunvericiliyin optimallaşdırılmasının və səmərəliliyinin mühüm amili kimi qəbul edilir.

## ƏDƏBİYYAT


1. Философская энциклопедия / Гл. ред. Ф.В. Константинов. Т. 5. М.: Совеетская энциклопедия, 1970, с. 168.
2. Бойко Л.М. Совершенствование законодательной техники в условиях ускорения социально-экономического развития советского общества. Ташкент, 1988, с. 10
3. Бахчисарайцев Х.Э. О законодательной технике и языке нормативных актов // Правоведение, 1960, № 4, с. 3.
4. Успенский Л. Очерки по юридической технике. Ташкент: Изд-во АО «Средазкнига», 1927, с. 4.
5. Ушаков А.А. Содержание и форма в праве и советское правотворчество. Автореф. дис. д.ю.н. Свердловск, 1970, с. 12-13.
6. Ушаков А.А. О понятии юридической техники и ее основных проблемах // Ученые

записки Пермского ун-та. Юридические науки. Т. 19. Вып. 5. Пермь: Изд-во Перм. ун-та, 1961, с. 77.
7. Брауде И.Л. Вопросы законодательной техники // Советское государство и право, 1957, № 8, с. 56.
8. Керимов Д.А. Кодификация и законодательная техника. М., 1962, с. 44-47; Теоретические вопросы систематизации советского законодательства / Под ред. С.Н. Братуся и И.С. Самощенко. М., 1962, с. 185.
9. Кругликов Л.Л. О средствах законодательной техники в уголовном праве / Проблемы юридической техники в уголовном и уголовно-процессуальном законодательстве. Ярославль, 1996, с. 4.
10. Ильюк Е.В. Законодательная техника построения диспозиции статьи уголовного закона: Автореф. дис... канд. юрид. наук. Свердловск, 1989, с. 6.
11. Законодательная техника. Научно-практическое пособие / Под ред. Ю.А. Тихомирова. М.: Городец, 2000, с. 9.
12. Там же.
13. Проблемы юридической техники в уголовном и уголовно-процессуальном законодательстве / Под ред. Л.Л. Кругликова. Ярославль, 1996, с.5.
14. Алексеев С.С. Общая теория права: Курс лекций в двух томах. М.: Юридическая литература, 1982, Т. 2, с. 288.
15. Карташов В.Н. Юридическая техника, тактика, стратегия и технология (к вопросу о соотношении) / Проблемы юридической техники. Н.Новгород, 2000, с. 17.
16. Александров А.С. Техника доказывания в русском уголовно-процессуальном дискурсе / Законодательная техника современной России: состояние, проблемы, совершенствование. Сборник статей: В 2-х т. Н.Новгород, 2001. Т. 2, с. 466.
17. Нашиц А. Правотворчество. Теория и законодательная техника / Пер. с рум. М.: Прогресс, М., 1974, с. 144.
18. Общая теория права. М.: Изд-во МГТУ им. Н.Э. Баумана, 1995, с. 216-218.

## К ВОПРОСУ О СУЩНОСТИ ЗАКОНОДАТЕЛЬНОЙ ТЕХНИКИ

**Ф.А.СЕИДОВ**

### РЕЗЮМЕ

Изучение генезиса законодательной техники, разработка ее понятия, средств и правил позволяет получить дополнительные занятия о природе законодательных приемов создания, реализации и толкования норм права, определить правовые концепции и конструкции. При всем многообразии взглядов на проблему законодательной техники можно выделить две позиции: «широкий» подход, когда законодательная техника отражает более одного аспекта правовой действительности и «узкий» подход, когда законодательная техника присутствует лишь в одной сфере права – законодательной. В целом же в статье законодательная техника признается важным фактором оптимизации и эффективности законодательства.

**AS TO THE İSSUE OF THE ESSENCE OF LEGİSLATİVE TECHNİQUE**

**F.A.SEYİDOV**

**SUMMARY**

Studying of genesis of legislative technique, elaboration of its notion, means and rules allow obtaining of additional кnowledge on nature of legislative methods of creation, realization and interpretation of legal norms and definition of legal conception and structure. For all variety of opinions concerning the legislative technique, only two positions can be emphasized: "the wide approach" – when legislative technique reflects more than one aspect of legal reality, and "narrow approach" – when legislative technique is available only within one field of law – legislative. As a whole, within the Article, the legislative technique is considered as an important factor of optimization and effectiveness of legislation.